# AQRAR UNİVERSİTET – MÜKƏMMƏL, MÜASİR TƏHSİL KOMPLEKSİ

**Respublikanın qocaman yüksəkixtisaslı kənd təsərrüfatı mütəxəssisləri hazırlayan yeganə ali təhsil məkanında xüsusi yeri və çəkisi ilə seçilən Azərbaycan Dövlət Aqrar Universitetində də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin aqrar sektora, aqrar təhsilə və aqrar elmə diqqət və qayğısı ilə universitetin maddi-texniki bazasının dünya standartlarına uyğun yenidən əsaslı qurulması, tədris korpuslarının əsaslı təmiri, yeni müasir dünya standartlarına uyğun korpusların və yataqxanaların inşası, professor-müəllim və tələbələr üçün maksimum şərait yaradılması, müasir tədris avadanlıqları ilə təchizatı, təhsildə şəffaflıq, obyektivlik əsas meyar kimi qəbul olunması aqrar mütəxəssis hazırlığının keyfiyyətinə öz töhfələrini vermişdir.**

**Bəli, böyük qürur hissi ilə demək olar ki, Azərbaycan dövlətinin diqqət və qayğısı sayəsində, həmçinin son illər Azərbaycan Aqrar Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərovun qətiyyəti, cəsarəti və tələbkarlığı ilə 70-ci illərdəki Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun şanlı və şərəfli tarixi özünə qaytarılmışdır.** Bu gün artıq mübaliğəsiz, sözün əsl mənasında bu qədim universitetin son illərdə diqqəti çəkən, inkişaf tempinə nəzər salsaq, inkişafın zirvə ömrünə çatdığının şahidi olarıq. Belə ki, ölkədə aqrar sahənin inkişafı üçün mövcud kadr probleminin həlli yolları da məhz bu təhsil müəssisəsindən başlayır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iyunun 24-də Gəncəyə növbəti səfəri çərçivəsində Azərbaycan Dövlət Aqrar Universitetinin yeni tədris korpusunun açılışında iştirak edərək, burada yaradılan şəraitlə tanış olması universitetə verilən qiymət və qayğının bariz nümunəsi idi. Ölkədə ərzaq probleminin həllində ən önəmli rola malik olan kənd təsərrüfatının elmi əsaslarla inkişafında həmişə mühüm rolu olmuş bu ali təhsil müəssisəsi son illər tamamilə yenidən qurulmuşdur. Yeni inşa edilmiş tədris korpusunda müasir təfəkkürlü kadrların hazırlanması, eləcə də elmi tədqiqatların səmərəli aparılması üçün hər cür şərait yaradılıb. Professor-müəllim heyətinin və tələbələrin ixtiyarına ən müasir əyani vasitələr və avadanlıqla təchiz olunmuş auditoriyalar və laboratoriyalar verilib. Binada bütün zəruri infrastruktur qurulub. İnzibati xidmət və digər yardımçı otaqlar yaradılıb. Yeni korpus 2 hektar ərazini əhatə edir. 6 mərtəbədən ibarət yeni tədris binasında 3 min tələbə təhsil ala bilər. Burda tələbələrin ən yüksək innovativ texnologiyalardan istifadə etməklə təhsil almaları üçün bütün şərait yaradılıb. Keyfiyyətli təhsillə yanaşı tələbələrin asudə vaxtının səmərəli təşkili də nəzərə alınıb.



Beynəlxalq standartlara uyğun idman zalı, kafe fəaliyyət göstərir. Binanın həyətində isə xüsusi istirahət guşələri mövcuddur. Yeni tədris korpusunda aqronomluq, zootexniklik istiqaməti, ictimai elmlər və multikulturalizm kafedraları, interaktiv təlim-tədris otaqları fəaliyyət göstərəcək. Bu korpusun istifadəyə verilməsi bir də ona görə əlamətdardır ki, burada əlavə iş yerləri açılacaqdır. Tam əminliklə demək olar ki, ali təhsil ocağında yaradılan münbit şərait gələcəkdə nəinki ölkədə aqrar sahə üzrə ixtisaslı kadr çatışmazlığını aradan qaldıracaq, həmçinin universitetin yetişdirdiyi mütəxəssislərə digər dövlətlərin də ehtiyacı yaranacaq. Eyni zamanda, burada yaradılan münbit şərait, keyfiyyətli tədris proqramı, müasir laboratoriyalarda təcrübə aparmaq gənclərin daha çox diqqətini cəlb edəcəkdir. Bu da öz növbəsində ADAU-da təhsil almaq istəyən tələbələrin sayının daha da artmasına stimul verəcəkdir. Dünyanı cənginə alan və getdikcə tüğyan edərək fəlakətə sürükləyən ağır, dəhşətli və ölümsaçan koronavirus (COVİD-19) pandemiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkəmizin digər təhsil müəssisələrində olduğu kimi, Azərbaycan Dövlət Aqrar Universitetində də təhsil, təlim-tərbiyə prosesi dayandırılmış və bununla bağlı tədbirlər təxirə salınmışdır. Bu dövr ərzində universitet rəhbərliyinin tələbkarlığı və qətiyyətliliyi ilə universitetin potensial imkanları səfərbər edilərək, tələbələrə təhsil proqramının mənimsənilməsinin davam etdirilməsi məqsədilə tədris prosesinin məsafədən, o cümlədən ADAU TV internet televiziyası vasitəsilə təşkili qərara alınmışdır. 17 mart 2020-ci il tarixindən başlayaraq universitetin internet televiziyası vasitəsilə keçirilən onlayn dərslərin sayı 500-ü keçmişdir.

2019-cu ilin sentyabr ayından istifadəyə verilmiş ADAU TV internet televiziyası ən müasir avadanlıqlarla təchiz olunduğundan yayımın keyfiyyəti də yüksək səviyyədə olmuşdur. Facebook üzərindən canlı yayımlanan dərslər sonradan ADAU TV-nin youtube portalında yerləşdirilmişdir ki, bu da dərslərin təkrar dinlənilməsinə və universitetin təkmil videodərslər bazasının formalaşmasına şərait yaratmışdır. Dərslərin ADAU TV internet televiziyası vasitəsilə keçirilməsinin üstünlüyünü xarakterizə edən ən mühüm cəhətlərdən biri onun ictimaiyyət nümayəndələri, valideynlər, fermerlər, kənd təsərrüfatı istehsalçıları, fərdi təsərrüfat sahibləri üçün açıq olmasıdır ki, bu da tədris prosesinin əmək bazarının tələbləri baxımından qiymətləndirilməsinə çox böyük imkanlar yaratmışdır, şərhlər bölməsində yazılan təkliflər həmişə nəzərə alınmışdır. Hər biri 60 dəqiqə olmaqla gün ərzində 6-7 dərs keçirilmiş və cədvəllərin tərtibində tələbələrin rəyləri, təklifləri nəzərə alınmışdır. Təhsil proqramlarının bölmələrinə uyğun olaraq dərslər Azərbaycan, rus və ingilis dillərində aparılmışdır. Yuxarıda qeyd olunanlarla yanaşı universitetdə təhsil proqramlarının məsafədən mənimsədilməsi məqsədilə tədris materiallarının tələbələrə elektron formada çatdırılması, fənlərin xarakteri və tələbələrin istəyindən asılı olaraq müxtəlif üsullardan, o cümlədən Skype, WhatsApp, Zoom, Hangouts proqramlarından istifadə edilməsi yolu ilə də təmin edilmişdir. Qeyd edək ki, tədrisin məsafədən təşkili bakalavriat səviyyəsi ilə bərabər magistratura səviyyəsində təhsil alan tələbələri də əhatə etmişdir. Ümumiyyətlə, hazırki dövrdə universitetdə tədrisin məsafədən aparılmasının tələbələri əhatətmə səviyyəsinin maksimumlaşdırılması əsas hədəf kimi qoyulub.

Ali təhsil ocaqlarında beynəlxalq əlaqələrin genişlənməsi prioritet məsələlərdəndir. Azərbaycan Dövlət Aqrar Universitetinin bu sahədə fəaliyyəti təqdirəlayiqdir. Belə ki, son illər 25-dən çox ölkənin 100-dən çox universiteti ilə işgüzar münasibətlər qurulub. Bu universitetlər arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq üçün imzalanmış Anlaşma Memorandumu çərçivəsində müəllim, tələbə, doktorant və digər işgüzar münasibətlərin qurulması nəzərdə tutulub. Məqsəd və məram qabaqcıl yeni elmi nailiyyətlərdən, innovativ texnologiyalardan yararlanaraq yeni nəsil mütəxəssislərin yetişdirilməsi, ali təhsil sisteminin məzmun və keyfiyyət göstəricilərinin daha da müasirləşdirilməsidir. Bu baxımdan universitet, Almaniya, Sloveniya, Polşa, Macarıstan, Fransa, Rumıniya, Bolqarıstan, Portuqaliya, İsveç, Norveç və digər ölkələrin ali təhsil, həmçinin elmi-tədqiqat müəssisələri ilə fəal əməkdaşlıq edir. Bu əməkdaşlıq, əsasən, "Erasmus+" layihəsi çərçivəsində həyata keçirilir. Layihə 2014-2020-ci illərdə təhsil, təlim, gənclər və idman sahələrində tədbirlər və böyük qrantlar təşkil edən Avropa Birliyi Proqramı olmaqla, bütün tələbələrə, doktorantlara və işçi heyətlərinə böyük imkanlar, təhsil sahəsində əməkdaşlıq proqramları təklif edir. Bu layihəni fərdi öyrənənlərin bacarıq əldə etmələrinə köməketmə, peşəkar inkişaflarını dəstəkləmə və digər mədəniyyətləri ətraflı öyrənmə potensialı var. Universitetin Türkiyənin Ankara Universiteti, İstanbul Universiteti, Ondokuz Mayıs Universiteti, Atatürk Universiteti, Selçuk Universiteti, Fırat Universiteti, Yüzüncü yıl Universiteti, Ağrı İbrahim Çeçen Universiteti, Namik Kemal Universiteti, Iğdır Universiteti, Qazi Osman Paşa Universiteti, Aladdin Keykubat Universiteti və digər ali təhsil müəssisələri ilə də əməkdaşlıq əlaqələri var. Qeyd olunan ali təhsil müəssisələri ilə müəllim və tələbələrin mübadiləsi, əsasən, Mövlanə Mübadilə Proqramı (MMP) çərçivəsində həyata keçirilir. Bu proqram Türkiyə daxilində təhsil verən ali təhsil müəssisələri ilə ölkə xaricində təhsil verən ali təhsil müəssisələri arasında tələbə və müəllim mübadiləsini həyata keçirmək məqsədi daşıyır.

Azərbaycan Dövlət Aqrar Universiteti, həmçinin, ABŞ-ın Oklahoma Dövlət Universiteti, Texas A&M Universiteti və İllinoys Dövlət Universiteti ilə sıx əməkdaşlıq edir. Əməkdaşlıq əlaqələri professor-müəllim heyətinin mübadiləsi, birgə elmi-tədqiqat işlərinin yerinə yetirilməsi, konfrans, seminar və təlimlərdə iştirak sahələrini əhatə edir. Asiya ölkələrinin - Çin Xalq Respublikası, Cənubi Koreya, Yaponiya, Pakistan və Hindistanın aparıcı ali təhsil, həmçinin elmi-tədqiqat müəssisələri ilə əlaqələri mövcuddur.



Hazırda ADAU ilə Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Tacikistanın universitetləri arasında əməkdaşlıq çərçivəsində müəllim və tələbələrin mübadiləsi həyata keçirilir. Ukrayna və Gürcüstanın da ali təhsil müəssisələri ilə aktiv əlaqələr var.

Aqrar Universitetdə nəzəriyyə ilə praktikanın vəhdəti əsas hədəflərdən hesab edilir ki, bu da tələbələrin praktiki biliklərə daha mükəmməl yiyələnməsinə stimul verir. Bununla bağlı ADAU-da bir neçə istiqamətdə köklü işlər aparılır, müasir laboratoriyalar yaradılıb, tələbələrin ixtisaslarına uyğun istehsalat təcrübələri keçməsi üçün müvafiq müəssisələrlə, şirkətlərlə əməkdaşlıq müqavilələri imzalanıb, tədris-təcrübə təsərrüfatı yenidən qurulub ki, burada tələbələrin auditoriyada aldıqları nəzəri bilikləri istehsalata tətbiq etməyi öz effektini verir. Məhz, universitetin reytinqinin yüksəlməsi, elmi bazanın zənginləşməsi, beynəlxalq aləmdə tanınması, orta məktəb şagirdlərinin bu universitetə böyük marağı olaraq seçməsi, xarici ölkələrdən tələbə axınının çox olması bunun bariz nümunəsidir.

Aqrar Universitetdə ölkə Prezidentinin aqrar sahəyə sonsuz diqqət və qayğısı sayəsində tədris-təcrübə təsərrüfatı 2019-cu ildə əsaslı şəkildə yenidən qurulub. Ərazisi 73,3 ha, o cümlədən əkin yeri 42,51 ha, meyvə bağı 1,2 ha, örüşlər 15,83 ha, üzümlük 1,52 ha, meşə və meşə zolağı 4,86 ha, ictimai tikililər 3,62, küçə və meydançalar 3,76 hadır. Tədris-təcrübə təsərrüfatının həyətinə 3500 kv.m asfalt örtüyü salınmış, 200-dən çox ağac, 150-dək gül kolları əkilmiş, inzibati bina təmir edilmişdir. Təsərrüfatda üzüm və meyvə bağı salınmış, açıq və qapalı şəraitdə tədris aparmaq üçün auditoriyalar, kəsim sexi tikilmiş və bütün inventarlarla tam təmin edilmişdir. Eyni zamanda, qoyunçuluq ferması əsaslı təmir olunmuşdur. Təsərrüfatın su təminatına xüsusi diqqət yetirilərək 4 subartezian quyusu əsaslı şəkildə təmir edilmiş və istifadəyə yararlı hala gətirilmiş, əlavə olaraq 110 tonluq ehtiyat su hovuzu tikilmişdir. Təsərrüfatda yeni yaradılmış heyvan kəsimi sexi auditoriya, kəsim və laboratoriya bölmələrindən ibarət olmaqla, baytarlıq və zootexniklik istiqaməti üzrə mütəxəssis hazırlığında mühüm rol oynamaqdadır. Onu xüsusilə qeyd etmək yerinə düşərdi ki, Gəncə şəhərində tənha yaşayan ahıl şəxslərə və aztəminatlı ailələrə universitetin tədris-təcrübə təsərrüfatından, istixanadan, quşçuluq-tədris mərkəzindən və heyvandarlıq kompleksindən əldə olunan tərəvəz, süd-quşçuluq və digər ərzaq məhsulları xalqımıza xas olan xeyriyyəçilik və diqqət qayğıya uyğun olaraq çatdırılması ənənə halını almışdır.

Universitetdə aparılan məqsədyönlü islahatlar, yaradılan son dərəcədə şəffaf və sağlam mühit, burada çalışan professor-müəllim və tələbə kontingentində böyük rəğbətlə qarşılanır. Tam qənaətə gəlmək olar ki, universitetdə həyata keçirilən təqdirəlayiq tədbirlər və görülən işlər praqmatik dövlət başçısı, ölkə Prezidenti cənab İlham Əliyevin ölkənin inkişafı üçün müəyyənləşdirdiyi prioritet istiqamətlərə uyğun qurulmuşdur.







**Zabit XƏLİLOV,**
**"Respublika".**